# Kiçik yaşlı məktəbli şəxsiyyətinin inkişafında qarşılıqlı münasibətlərin rolu

**Cəmilə İsmayılova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** cemile.k@mail.ru

**Rəyçilər:** ped.ü.f.d., dos.Z.İ. Əliyeva,
psixol.ü.f.d., dos.M.C. İsmayılova

**Açar sözlər:** şəxsiyyət keyfiyyətləri, motivlər, özünüdərk, özünüqiymətləndirmə, özünütəhlil, formalaşma, ağır təlim situasiyaları

**Ключевые слова:** личностные качества, мотивы, самооценка, самокритика, самоопределение, формулировка, тяжелые тренировочные ситуации

**Key words:** personality qualities, motives, self-esteem, self-criticism, self-definition, formulation, severe training situations

Məşhur Amerika psixoloqu Q.V.Olport şəxsiyyəti fərdin davranış və təfəkkürünü müəyyən edən psixofiziki sistemlərin dinamik təşkili hesab etmişdir. Şəxsiyyət və onun formalaşması haqqında psixoloqlar müxtəlif fikirlər söyləmişlər. Amma onların fikirlərində bir ümumi cəhət–şəxsiyyət keyfiyyətləri hələ kiçik yaşlarından formalaşdırılmalıdır ideyası ümumidir.

Müasir pedaqoji proses qarşısında qoyulmuş əsas vəzifə də cəmiyyət üçün onu qoruyub saxlaya biləcək və idarə edə biləcək şəxsiyyətlərin formalaşdırılmasıdır. Ona görə də şəxsiyyətin formalaşdırılmasına hələ kiçik yaşlarından hətta məktəbəqədər dövrdən başlanılması vacib tələb kimi qarşıya qoyulmuşdur. Yəni hələ kiçik yaşlarından uşaqlar şəxsiyyət kimi tərbiyə edilməlidirlər. Görkəmli rus pedaqoqu A.S. Makarenko isə tərbiyəni ictimai iş hesab etmışdir (Ə. Əlizadə, Ə. Bayramov. Psixologiya. Bakı: Çinar – çap, 2002, s. 66). Onun fikrincə, cəmiyyətdəki hər şey tərbiyə edir. Bunlar içərisində əsas yeri isə tərbiyəçilər tutur. Doğrudan da istər ailədə, istər uşaq bağçasında, istər məktəbdə uşaqlara onu əhatə edən hər şey – ev şəraiti əşyalar, valideynlər, bağça həyatı yataq otağı, oyuncaqlar, tərbiyəçi, sinif otağı, avadanlıqlar, dərs və dərs ləvazimatları və s. təsir edərək onlarda müxtəlif münasibətlər yaradırlar. Təsir edərək münasibət yaradan bu vəsait və vasitələr içərisində tərbiyəçi, valideyn və uşağın daxil olduğu qrup, kollektiv mühüm rol oynayır. Onların qarşılıqlı təsiri ilə uşaqların onları əhatə edən əşyalara, özlərinə, digər insanlara münasibəti dəyişir, yeni münasibətlər yaranır. Uşaqlarda şəxsiyyət keyfiyyətlərinin formalaşmasına erkən yaşdan başlamaq daha əhəmiyyətli və səmərəli nəticə verir. Belə ki, kiçik yaşlı məktəblilər sinif kollektivinə daxil olarkən onlarda yeni və müxtəlif məzmunlu hisslər yaranmağa başlayır. Bu hisslər içərisində təlimə münasibət əsas rol oynasa da şəxsiyyət münasibətlərinin də düzgün istiqamətləndirilməsi və inkişafında mühüm rol oynayır. Uşaq düşdüyü yeni mühitdə özünü reallaşdırmağa, yoldaşlarının diqqətini özünə cəlb etməyə, ”Mən varam və mən də buradayam” deməyə çalışır. Bu da kiçik yaşda məktəblinin həm şəxsiyyət kimi həm də qarşılıqlı münasibətlərinin formalaşmasının ilk əlamətləri və şərtləri kimi çıxış edir. Uşaq özünü təsdiq etmək üçün həm öz, həm də yoldaşlarının hərəkətlərinə fikir verərək təhlil etməyə, müəyyən nəticələr çıxarmağa çalışır. Yoldaşlarının və müəllimim rəğbətini qazanmaq üçün onların rəğbət bəslədiyi və sevmədiyi münasibətləri

öyrənməyə çalışır. Öz hərəkətlərini rəğbətləndirmə istiqamətində qurmağa çalışır ki, bu da uşaqda özünüdərkin yaranması və inkişafına səbəb olur

Artıq məktəb həyatının ilk günlərindən başlayaraq uşaq özünün hərəkət və davranışlarına şüurlu münasibət bəsləməyə və özünə nəzarət etməyə başlayır. Özünə nəzarət və özünü tənzim etmə isə insanın şəxsiyyət kimi formalaşmasının mühüm amilidir. Uşaq özünə nəzarət etdikcə onda həm başqalarını həm də özünüqiymətləndirmə meylləri də yaranmağa başlayır ki, bu da qarşılıqlı münasibətlərin yaranmasının əsas faktorlarından biridir.

Müvəffəqiyyət motivləri də ibtidai siniflərdə aparıcı rol oynayan motivlərdən biridir. Təlimdə müvəffəqiyyət qazanan şagirdlərdə bu motiv aydın şəkildə ifadə olunur. Onlar yaxşı nəticələr qazanmaq üçün bütün dərsləri yaxşı öyrənməyə, verilən tapşırıqları düzgün yerinə yetirməyə çalışırlar. Əgər nüfuz motivləri uşağın qabiliyyətlərinin inkişafına uyğundursa, bu zaman o, əlaçının inkişafının güclü hərəkətverici qüvvəsinə çevrilir. Bunun nəticəsində isə şagird öz əməksevərliyi və işə qabilliyi əsasında yüksək təlim nəticələrinə nail olur. Fərdiyyətçilik, həmişə öz yaşıdlarını qabaqlama münasibətləri belə uşaqların şəxsiyyətinin əxlaqi istiqamətlərinə çevrilir. Yaşlıların rəğbətini qazanmaq, onların sevimlisi olmaq hissi belə vəziyyətdə təlim müvəffəqiyyətinin hərəkətverici qüvvəsinə çevrilir. Onlar böyüdükcə yüksək səmərəli fəaliyyətə nail olurlar, amma yaradıcılıq göstərə bilmirlər. Çünki hər şeyi – işi tez və yaxşı yerinə yetirməyə çalışmaq onları yaradıcılıq axtarışlarından, problemli tapşırıqların icrasının dərinliklərinə enmə prosesindən və imkanlarından məhrum edir. D.B.Boqoyavlenskaya böyük yaşlı məktəblilərlə apardığı eksperimentlərdən belə bir nəticəyə gəlmişdir ki, yaradıcılıqla, məsələləri qeyri-standart yollarla həll etməklə rəqabət bir araya sığmazdır. Nüfuz motivləri orta qabiliyyət səviyyəsinə, özünə inamsızlığı dərk etməməyə, yüksək iddia səviyyəsinə uyğun olmaqla bərabər hər hansı bir təlim uğursuzluğu affektiv reaksiyalara da gətirib çıxarır. Təlimdə yetirməyən şagirdlərdə nüfuz motivləri inkişaf etmir. Yüksək qiymət alma, nailiyyət qazanma motivləri, əsasən, aşağı sinif şagirdləri üçün xarakterikdir.

Şəxsiyyətin hərtərəfli inkişafı bu yaşda yeni qarşılıqlı münasibətlər yaranmasının əsasını təşkil edir. Bura səlahiyyət (kompetentnost) hissinin formalaşdırılması da daxildir. (E.Erikson). Təlim kiçik yaşlı məktəblilərin əsas və aparıcı fəaliyyət sahəsidir. Əgər bu fəaliyyətdə uşaq özünü səlahiyyətli hiss etmirsə, onda şəxsiyyəti, şəxsiyyət keyfiyyətləri və onunla bərabər qarşılıqlı münasibətlərin məzmununun da inkişafı təhrif olunar. Maraqlıdır ki, uşaqlar məhz təlim prosesində səlahiyyətliliyin vacibliyini dərk edirlər. M.E.Bosmonova və A.V. Zaxarovanın qeyd etdiyi kimi, kiçik məktəblilər məşhur xüsusiyyətlər içərisində əsas yeri biliyə və ağıla verirlər (№ 10, s.136).

Uşaqlarda özünüqiymətləndirmə və səlahiyyət hissinin inkişaf üçün sinifdə psixoloji komfort (rahatlıq) və müdafiə mühitinin– iqliminin yaradılması əsas və vacib şərtdir.

Yüksək pedaqoji və psixoloji ustalığa malik müəllimlər uşaqları hərtərəfli, vahid prinsip əsasında qiymətləndirməklə yanaşı, həm də onlara özünün müsbət münasibətlərini, ondan öz qüvvəsini səfərbər edərək yaxşı qiymət alması gözlədiyini hiss etdirməyə çalışır. Hətta uşağın işini aşağı səviyyədə qiymətləndirdikdə belə ona ümid etdiyini hiss etdirməyə və müsbət emosional fon yaratmağa çalışır. Belə müəllimlər şəxsiyyəti yox konkret işi qiymətləndirir, şagirdlərə əlaçıları təqlid etməyi yönəltmir, uşaqların fərdi xüsusiyyətlərini üzə çıxararaq onu daha effektiv inkişaf etdirməyə, təlim müvəffəqiyyətinə yönəltməyə çalışır. Onlar təlim müvəffəqiyyətinə asanlıqla nail olan uşaqları çox tərifləmirlər. Əksinə zəif uşaqların təlimdə ən kiçik irəliləmələrini, səy göstərən, öyrənməyə çalışan uşaqları daha çox tərifləyərək həvəsləndirməyə çalışırlar. Yaxşı oxuyan uşaqların diqqətini zəif oxuyanlara qayğı və kömək

göstərməyə yönəldir. Bu müəllim münasibətlərinin yaranmasında aparıcı rol oynayır. Bu zaman uşaqların müəllimə qarşı münasibətlərində doğmalıq, mərhəmətlilik hissi yaranır.

Uşaqlarda özünüqiymətləndirmə təkcə təlimdə yetirməsi və yoldaşları, müəllimləri ilə ünsiyyət əsasında yaranmır. Ailə tərbiyəsi, stili, ailədə qəbul olunmuş qiymətləndirmə qaydaları da böyük əhəmiyyət kəsb edir. Uşaqda yüksək özünüqiymətləndirmə ailə kumiri prinsipi əsasında tənqidsiz şəraitdə tərbiyə olunur. Bu zaman hələ kiçik yaşlarında uşaqda özünün xüsusiliyi, əvəz olunmazlığı haqqında fikir yaranır. Özünü yüksək qiymətləndirən uşaq şəxsiyyətində hamıya və hər şeyə qarşı tələbkarlıq yaranır. Belə halda tərif və tənqiddən yerində istifadə xüsusi əhəmiyyət kəsb edir. Aşağı özünüqiymətləndirməyə malik uşaqlar ailədə geniş azadlığa malikdir. Lakin bu azadlığın mahiyyətini nəzarətsizlik, uşaqlarda valideynlərin bir-birinə etinasızlığı təşkil edir. Valideynlər uşaqların həyatına yalnız uşaqlarda konkret problem (xüsusən də təlim problemləri) yarandıqda müdaxilə edirlər. Adi halda isə uşaqların maraq və meylləri, hissləri və həyəcanları, məşğələləri ilə az maraqlanırlar. Uşaqların özünə münasibətin və qiymətin yaranmasında ailə qiymətliliyi əsas yer tutur. Uşaqda valideynlərin ailə həyatında yüksək qiymətləndirdiyi mövqe istiqamətində özünüqiymətləndirmə formalaşır. Uşağın özünüqiymətləndirməsinə valideynlərin xüsusi diqqət yetirdiyi məişət məsələləri də qarışır. Yəni valideyni uşağın təlim fəaliyyəti deyil sinfin havanın təmizliyi kimi məsələlərlə maraqlanması. Uşaqların məktəb həyatı ailədə müzakirə edilmir və yaxud da formal müzakirə edilir. Çox vaxt etinasız sorğular "Məktəbdə bu gün nə baş verdi" verilir, ona da eyni səviyyədə etinasız cavablar verilir – "Maraqlı heç nə" və s.

Q.A.Çukermanın qeyd etdiyi kimi uşağın təlimə verdiyi qiymətlə valideynin qiyməti I sinifdə üst-üstə düşür, IV sinifdə isə ayrılır, parçalanır (əd.siyah. № 10, s. 137-138).

Əgər uşaq məktəbə gedərkən valideynlərinin qiymət iddialarını qəbul edirlərsə, amma getdikcə-böyüdükcə az və ya çox dərəcədə yoldaşları arasında öz fəaliyyətlərini, mənimsəmə səviyyəsi və nəticələrini istiqamətləndirməyə başlayırlar. Onlar üçün yoldaşlarının münasibətləri, verdikləri qiymətlər daha çox üstünlük qazanır.

Məktəb və ailə özünüdərketmənin (özünütanımanın) xarici faktorlarıdır. Onun formalaşması uşağın reflektiv nəzəri təfəkkürünün inkişafından asılıdır. Kiçik məktəbli yaşının sonunda refleksiya meydana çıxır, bunun əsasında nailiyyətin və şəxsiyyət keyfiyyətlərinin özünüqiymətləndirilməsinin formalaşması üçün yeni imkanlar yaranır. Özünüqiymətləndirmə daha uyğun (adekvat) və diferensial şəkil alır, özünütəhlil daha əsaslı aparılır. Eyni zamanda əsaslı fərdi fərqlər müşahidə olunur. Qeyd etmək lazımdır ki, özünüqiymətləndirmə səviyyələrini dəyişdirmək çox çətindir.

Deməli, kiçik məktəb yaşı məktəb həyatının başlanğıcıdır. Bu həyata daxil olmaqla uşaq daxilən məktəbli mövqeyinə, təlim motivlərinə yiyələnir-qazanır. Bu dövr müddətində uşaqda nəzəri təfəkkür inkişaf edir; o, yeni bilik, bacarıq və vərdişlərə yiyələnir; özünü sonrakı təlim fəaliyyəti üçün zəruri baza yaradır. Amma təlim fəaliyyəti bunlarla məhdudlaşmır. Bu təlim fəaliyyətinin nəticəsindən kiçik məktəbli şəxsiyyətinin inkişafı asılı olur. Məktəb müvəffəqiyyəti uşağın yoldaşları və yaşlılar tərəfindən qiymətləndirmə kriteriyalarına çevrilir. Əlaçı və yetirməyən şagird statusu uşağın özünüqiymətləndirilməsinə, özünəhörmət və özünüqəbuletməsinə ciddi təsir göstərir. Təlim müvəffəqiyyəti öz qabiliyyət və müxtəlif tapşırıqları keyfiyyətlə yerinə yetirmək bacarıqlarını dərk etmə yeni özünüdərk aspekti olan səriştəlilik, etibarlılıq hissinin yaranmaması nəticəsində özünüqiymətləndirmənin səviyyəsi aşağı düşür, yarımçılıq hissi yaranır. Bu hisslər isə düzgün təşkil edilmiş müəllim-şagird qarşılıqlı münasibətləri ilə aradan qaldırıla bilər. Bu, münasibətlər içərisində şagird şəxsiyyəti düzgün və harmonik inkişaf edə bilər.

**Məqalənin aktuallığı.** Şəxsiyyətin formalaşdırılmasına hələ kiçik yaşlarından, hətta məktəbəqədər dövrdən başlanılması vacib tələb kimi qarşıya qoyulmuşdur. Yəni hələ kiçik yaşlarından uşaqlar şəxsiyyət kimi tərbiyə edilməlidirlər. Məqalənin aktuallığı da bu kimi vacib məsələnin geniş araşdırılmasından ibarətdir.

**Məqalənin elmi yeniliyi.** Ailə tərbiyəsi, ailədə qəbul olunmuş qiymətləndirmə qaydaları böyük əhəmiyyət kəsb edir. Uşaqda yüksək özünüqiymətləndirmə ailə kumiri prinsipi əsasında tənqidsiz şəraitdə tərbiyə olunur. Məqalənin elmi yeniliyi də bu amilə xüsusi diqqət yetirilməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin tələbə və magistrantları istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Ə.Bayramov, Ə.Əlizadə. Psixologiya. Bakı: Çinar–çap, 2002.
2. Ə.Qədirov. Yaş psixologiyası. Bakı: Maarif, 2008.
3. Ə.Qədirov. Kiçik yaşlı məktəblilərdə mücərrədləşdirmənin inkişafı. Bakı: Maarif, 1973.
4. Д.В. Богоявленская, Интеллектуальная активность как проблема творчества, Ростов н/Д 1983.
5. Л.И. Ботович. Этапы формирования личности. М., 1995.
6. Л.С. Выготский. Мышление и речь. М., 1982.
7. Л.С. Выготский. Кризис семи лет. М., 1984.
8. Возрастная и педагогическая психология / Под.ред. М.В.Гамезо, М.В.Матюхиной, Б.С. Михальчик.
9. Н.И. Гуткина, Психологическая готовность к школе. М., 1993.
10. А.И. Липкина. Самооценка школьника. М., 1976.
11. Д.Б. Эльконин., Психология обучения младшего школьника. М.,1989.
12. И.Ю. Кулагина. Возрастная психология. М.,1998.

**Дж. Исмаилова**

## Роль взаимоотношений в развитии личности учеников младших лет
## Резюме

В этой статье мы попытались объяснить роль личностных установок и роль отношений между младшими учениками. В этом процессе объясняется роль обучения, самопознания, самооценки и важности взаимоотношений в их создании и развитии.

**J. İsmayilova**

## Little adult role of the mutual attitudes development of the pupil personality
## Summary

In this article, we tried to explain the role of personality attitudes and the role of the relationship between the younger pupils. In this process the role of training, self-knowledge, self-assessment and the importance of mutual relations in their creation and development are explained.